# Mətbuat Şurası İdarə Heyətinin 2016-cı ildə ilk iclası keçirilib

**Dünən Azərbaycan Mətbuat Şurasının 2016-cı ildə ilk iclası keçirilib. İclas Şuranın 2016-cı il üçün iş planının müzakirəsi ilə başlayıb. Plan yekdilliklə qəbul edilib.**




### MŞ-nin 2015-ci il üçün hesabatı

Daha sonra MŞ-nin sədri, Milli Məclisin deputatı Əflatun Amaşovun Şuranın 2015-ci ildə gördüyü işlərə dair hesabatı dinlənilib.

Ə.Amaşov bildirib ki, ötən il rəhbərlik etdiyi qurumun fəaliyyətində iki başlıca xətt olub. Bunlardan birincisi şikayətlərin araşdırılmasıdır ki, bu da ümumi işlərin 54,1 faizini əhatə edib. Görülən işlərin 45,9 faizi müxtəlif istiqamətləri əhatə edən fəaliyyətdir. Bu baxımdan dövlət sənədlərindən irəli gələn vəzifələrin icrası ilə əlaqədar 5 tədbiri, jurnalistika və ictimai fikir tariximizlə bağlı 7



kitabın təqdimatını, KİV-lərin və jurnalistikamızın inkişafında xidmətləri olan şəxslərin yubileyləri ilə əlaqədar 6 toplantını, 6 ahıl jurnalistin evində ziyarət olunmasını, 8 xarici qonağın qəbulunu, 4 xarici səfəri, 2 birgə müsabiqəni, “Milli mətbuatımız, istiqlal yolumuz” silsiləsindən 2 sənədli filmin çəkilişini, media-məmur dialoqu çərçivəsində 1 görüşü, küçə aksiyalarındakı monitorinqləri, 3 bəyanatı, habelə 8 tematik tədbiri göstərmək mümkündür.

Ə.Amaşov məlumat verib ki, 2015-ci ildə Şuraya ümumilikdə 659 müraciət daxil olub. Onlardan 310-u bilavasitə KİV-lərdə gedən materiallardan şikayətdir. 349 müraciət müxtəlif təklif və tədbirlərlə, o cümlədən cari məsələlərlə bağlı olub. 310 şikayətin 84-ü ayrı-ayrı vətəndaşlardan, 75-i dövlət idarə, müəssisə və təşkilatlarından, 69-u özəl müəssisələrdən, 44-ü özünüidarəetmə orqanlarından, 28-i ictimai qurumlardan, 10-u siyasi partiyalardandır.

Şikayətlərin 48,3 faizində qəzetlərin, 38,8 faizində internet saytlarının, 8,9 faizində informasiya agentliklərinin, 4 faizində isə jurnalların fəaliyyətindən narazılıq ifadə olunub. Narazılıqların 34,3 faizi şərəf və ləyaqətin təhqiri, 30,1 faizi işgüzar nüfuzun ləkələnməsi, 27,4 faizi qarşı tərəfin mövqeyinin işıqlandırılmaması, 3,1 faizi plagiat ilə bağlıdır. Narazılıqların 5,1 faizində motivlər müxtəlifdir.

MŞ Katibliyi prosedur qaydalara uyğun olaraq şikayətlərlə əlaqədar tərəfləri Şuraya dəvət edib. Bu mərhələdə 310 şikayətdən 181-i həllini tapıb. Şikayətlərin 129-u komissiyalarda araşdırılıb. Bunlardan 87-nə Şikayətlər üzrə Komissiyada, 42-nə “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyada baxılıb.

Şikayətlər üzrə Komissiyada baxılan 87 məsələdən 54-ü komissiya səviyyəsində həllini tapıb. Digər 33 məsələ barədə çıxarılan rəylər qərar qəbulu üçün Şuranın İdarə Heyətinə təqdim edilib. “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyası tərəfindən araşdırılan 42 şikayətdən 14-ü barədə təqdimat verilərək yekun qərarın qəbulu üçün Şuranın İdarə Heyətinə təqdim edilib.

Şuranın İdarə Heyəti 2015-ci ildə ümumilikdə 31 qərar çıxarıb. Bu zaman Şikayətlər üzrə Komissiyanın 33 rəyindən 26-sı, “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyasının isə 15 təqdimatından 4-ü əsas götürülüb. Mətbuat Şurasının qərarlarının 28,1 faizi təkzib verilməsini, 27,9 faizi qarşı tərəfin mövqeyinin işıqlandırılmasını, 25 faizi təkzib və üzr istənilməsini, 13 faizi cavabdeh KİV-ə xəbərdarlıq olunmasını, 6 faizi isə cavabdeh media orqanının adının “qara siyahı”ya salınmasını nəzərdə tutub.

İl ərzində şikayətlərin araşdırılması Şuranın İdarə Heyətinin 12, Şikayətlər üzrə Komissiyanın 14, “Reket jurnalistika”ya qarşı mübarizə Komissiyasının 4 iclasında həyata keçirilib.

Ə.Amaşov, həmçinin məlumat verib ki, Mətbuat Şurası 2015-cü ilin iyul-noyabr ayları ərzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə yardımı ilə “Azərbaycanın mətbuat məkanında ədəbi dilin qorunmasına dəstək” layihəsini icra edib. Layihə çərçivəsində Lənkəran və Quba şəhərlərində, o cümlədən Bakıda “Mətbuatda Azərbaycan ədəbi dilinin qorunması: problemlər və perspektivlər” mövzusunda “dəyirmi masa”lar keçirilib. “Dəyirmi masa”larda bölgələrdə fəaliyyət göstərən KİV-lərin təmsilçilərinin, ictimaiyyət nümayəndələrinin, dilçi alimlərin, mərkəzi əhəmiyyətli media orqanları rəhbərlərinin iştirakı təmin olunub.

Bundan başqa, MŞ noyabrın 1-də keçirilmiş parlament seçkisində jurnalistlərin prosesi işıqlandırmalarının monitorinqini aparıb. Bu məqsədlə Şuranın İdarə Heyətinin üzvləri paytaxtda və ölkəmizin müxtəlif bölgələrindəki seçki məntəqələrində peşə vəzifəsini yerinə yetirən jurnalistlərə yaradılmış şəraitlə tanış olublar. Monitorinq 125 seçki dairəsinin mütləq əksəriyyətini əhatə edib. Şuranın İdarə Heyətinin üzvləri, həmçinin müşahidəçi qismində də seçkinin gedişini izləyiblər. Bundan başqa Mətbuat Şurasının öncədən müəyyənləşdirilmiş telefon nömrələri noyabrın 1-də “qaynar xətt” rejimində fəaliyyət göstərib.

Mətbuat Şurası 2015-ci ilin fevral ayında Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birgə “Gənc jurnalistlərin SOCAR qış məktəbi” layihəsini icra edib. Layihə çərçivəsində ölkənin aparıcı kütləvi informasiya vasitələrində çalışan, yaşı 30-a qədər olan 40-dək jurnalist müəyyənləşdirilib. 10 gün müddətində onlara Azərbaycanın neft sanayesinin xüsusiyyətləri barədə geniş məlumatlar verilib, müxtəlif praktik məşğələlər və ekskursiyalar təşkil edilib.

Mətbuat Şurası 2015-ci ildə özünün Ali Media Mükafatını təqdim edib. Hər il ənənəvi olaraq 22 iyul - Milli Mətbuat Günündə təqdim olunan mükafat üzrə 8 laureat müəyyənləşdirilib.

2015-ci ilin fevralında Azərbaycan Mətbuat Şurasının Türkiyə Respublikası Başnazirlik Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Azərbaycan nümayəndəliyi ilə birgə reallaşdırdığı Türkiyə-Azərbaycan Media Əməkdaşlıq Proqramı (TAMEP) çərçivəsində 2014-2015-ci tədris ilində ali məktəblərin jurnalistika fakultələrinə qəbulda ən yüksək nəticə göstərmiş on tələbənin Türkiyəyə səfəri gerçəkləşdirilib. Səfər qardaş ölkənin media təcrübəsi ilə tanışlıq məqsədi daşıyıb.

Mətbuat Şurası 2015-ci ildə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, həmçinin Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə jurnalistlər üçün yaradıcılıq müsabiqələri təşkil edib. Müsabiqələrdə ümumilikdə 30-dan artıq jurnalist mükafatlandırılıb.

Mətbuat Şurası 2015-ci ildə ali məktəblərin jurnalistika fakültələrinin abituriyent və magistr pilləsinə qəbul zamanı keçirilən qabiliyyət imtahanlarının təşkilində də iştirak edib. Şuranın müəyyənləşdirdiyi nümayəndələr Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının qabiliyyət imtahanı komissiyasında təmsil olunublar.

MŞ sədrinin hesabatı səsə qoyulub və yekdilliklə bəyənilib.



### Qərar və rəylərin qəbulu

İclasda daha sonra Mətbuat Şurasının Şikayətlər üzrə və “Reket jurnalistika”ya qarşı mübarizə komissiyalarının rəyləri əsasında qərarlar qəbul edilib. Müzakirələrdən sonra “Qərb xəbərləri” və “Xalq tribunası” qəzetlərinin adlarının MŞ-nin “qara siyahı”sına daxil edilməsi barədə qərar çıxarılıb. Bundan başqa, “Bələdiyyə birliyi” qəzetinə xəbərdarlıq olunması ilə bağlı da qərar qəbul edilib. İclasda, həmçinin “Milli.az” internet portalı, “dia.az”, “regionxeber.tv” saytı barədə də rəylər çıxarılıb.

### Ölkədəki iqtisadi durumun mediaya təsiri

İclasda KİV-lərin ölkədəki iqtisadi durumla bağlı vəziyyəti də müzakirə edilib. Bildirilib ki, qəzet kağızı 100 faizdən, xaricdən gətirilən hazır çap məhsulları isə 50 faizdən çox bahalaşıb. Üstəlik ölkəyə gətirilən qəzet kağızı və hazır çap məhsulları üzərinə 2005-ci ildə ləğv edilmiş əlavə dəyər vergisinin tətbiqinə başlanılması vəziyyəti bir qədər də çətinləşdirib. İdarə Heyətinin üzvləri mövcud durumdan çıxış yolu kimi göstərilən məsələlərlə bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət ünvanlanmasını məqbul sayıblar.

### İnternet mediaya dövlət tərəfindən maliyyə yardımının ayrılması

İclasda həmçinin internet media orqanlarının maliyyələşməsi ilə bağlı prinsiplər ətrafında da fikir mübadiləsi aparılıb. Bununla bağlı Ə.Amaşov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli mətbuatımızın 140 illik yubileyi münasibəti ilə MŞ İdarə Heyətinin üzvlərini qəbul edəndə bu istiqamətdə müzakirələr getdi. Həmin vaxt dövlət başçısının məsələyə münasibəti, dəyərləndirməsi oldu. Buna görə də ictimai rəyə təsirinin dövlətin və cəmiyyətin mənafeləri ilə uzlaşdırılması, səmərəli məcraya salınması, həmçinin ölkəmizin dünyada daha sistemli şəkildə təbliği üçün onlayn media vasitələrinə də dövlət dəstəyi şamil edilə bilər. İclasda məsələ ilə əlaqədar kriteriyaların dəqiqləşdirilməsinin, yekun təkliflərin ölkə rəhbərliyinə təqdim edilməsinin zəruriliyi önə çəkilib.

### Jurnalistika fakültələrinə qəbulda qabiliyyət imtahanı ilə bağlı müzakirə

Cari məsələlərin müzakirəsində əsasən ali məktəblərin jurnalistika fakültələrinə qəbulda qabiliyyət imtahanının keçirilməsi forması barədə müzakirələr aparılıb. Bildirilib ki, 2014-cü ildən başlayaraq bu mexanizm tətbiq edilir. Lakin onun təkmilləşməsinə ciddi ehtiyac var. Belə ki, qabiliyyət imtahanı zamanı abituriyentlərin jurnalistikaya marağı əsas prinsip kimi götürülməlidir. Qiymətləndirmə də daha çox jurnalistika prinsiplərinə əsaslanaraq aparılmalıdır. Bu baxımdan yeni kriteriyaların müəyyənləşməsi üçün təkliflərin hazırlanması məqsədəuyğun sayılıb.

✍ **Zamin Məmmədov,**
***“İki sahil”***